# Azərbaycan və Türkiyənin ortaq vizyonu -

*Yeni dünya düzənində baş verən dəyişikliklər fonunda Azərbaycan və Türkiyə arasındakı strateji tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi artıq bölgənin siyasi mənzərəsini formalaşdıran, yeni qlobal çağırışlara cavab verən güclü bir ittifaqın simvoluna çevrilib. Azərbaycan və Türkiyə arasındakı əlaqələr sadəcə diplomatik sənədlərdə yazılmış formal ifadələrdən ibarət deyil. Bu münasibətlər qan yaddaşına, ortaq tarixi köklərə və sarsılmaz qardaşlıq bağlarına söykənir. Son illər ərzində iki dövlət arasındakı əməkdaşlıq siyasi arenadan tutmuş iqtisadiyyata, müdafiə sənayesindən elm və mədəniyyətə qədər bir çox sahədə sürətlə inkişaf edib. Yüksək səviyyəli qarşılıqlı səfərlər, birgə hərbi təlimlər, enerji və nəqliyyat layihələri, ortaq universitetlərin və elmi tədqiqatların təşviqi bu əməkdaşlığın konkret təzahürləridir. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana verdiyi mənəvi və siyasi dəstək bu qardaşlığın ən parlaq nümunələrindən biri oldu. Bu hadisə iki ölkə arasındakı münasibətlərin mahiyyətini açıq şəkildə dünyaya nümayiş etdirdi. Azərbaycan və Türkiyə təkcə müttəfiq deyil, bir-birinin taleyinə şərik olan dövlətlərdir. Bakıdan Ankaraya uzanan bu strateji tərəfdaşlıq xətti bölgənin gələcəyini müəyyən edən əsas güc mərkəzlərindən birinə çevrilməkdədir.*

Azərbaycan Prezidenti İlham Əliyev martın 5-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfərə gedib. Səfər Azərbaycan və Türkiyə arasındakı birliyi daha da möhkəmləndirməklə yanaşı, əməkdaşlıq çərçivəsində də perspektivlərin sayını artırır. Məhz ölkə başçımızın budəfəki səfəri zamanı baş tutan görüşlər, Türkiyənin cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla birgə Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirakı deyilənlərə əyani sübutdur.

Ümumiyyətlə, enerji sahəsində iki qardaş ölkə köklü tarixə sahibdir. Azərbaycan və Türkiyə qlobal enerji xəritəsini dəyişdirən mühüm oyunçulardır. Bir vaxtlar xam neft və qaz ehtiyatları ilə məşhur olan region, indi enerji təhlükəsizliyinin açarını əlində tutan güc mərkəzinə çevrilib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP kimi nəhəng layihələr təkcə Azərbaycan və Türkiyəni birləşdirmədi. Bu boru kəmərləri Avrasiyanın enerji arteriyalarına çevrildi, Xəzər dənizinin təbii sərvətlərini Avropaya daşıyan strateji marşrut yaratdı. Azərbaycanın zəngin qaz ehtiyatları bu gün Avropanın da enerji xəritəsində mühüm yer tutur. Xatırladaq ki, ötən il Azərbaycanın qaz ixracatı 25 milyard kubmetrə çatıb. Bu həcmin təxminən yarısı Türkiyəyə ixrac edildi, qalanı isə Avropanın 10 ölkəsinə və digər regionlara yönəldi. Bu, sadəcə bir ticarət əlaqəsi deyil - bu, enerji təhlükəsizliyinin təmin olunması, regional sabitliyin möhkəmləndirilməsi və gələcəyə yönəlmiş ortaq vizyonun həyata keçirilməsidir. Azərbaycanın mavi yanacağı bu gün Avropanın enerji balansında strateji rol oynayır. Türkiyə isə bu enerji marşrutunun mərkəzinə çevrilərək mühüm tranzit ölkə funksiyasını yerinə yetirir. Bu əməkdaşlıq nəinki iki ölkənin iqtisadi qüdrətini artırır, həm də dünya enerji bazarında yeni güc balansı formalaşdırır.

Qeyd edək ki, 2024-cü ilin əvvəlində iki ölkə arasında ticarət dövriyyəsi 475 milyon 522 min ABŞ dollarına çatıb. Bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 18,4 faiz artım deməkdir. Xüsusilə, Azərbaycanın Türkiyəyə ixracı diqqətçəkən dinamika ilə böyüyüb. 2024-cü ilin ilk aylarında bu rəqəm 305 milyon 38 min dollar təşkil edərək, əvvəlki ilin analoji dövrü ilə müqayisədə 39 faiz artım göstərib. Digər tərəfdən, enerji tranziti məsələsində də qardaş ölkə ilə olduqca güclü əməkdaşlıq mövqeyinə sahibik. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəmərləri Azərbaycan və Türkiyənin iqtisadi əməkdaşlığının başqa tərəflərə faydasını təsdiqləyən layihələrdir. Bu göstəricilər iki qardaş ölkənin ticarət əlaqələrinin təkcə statistik artım deyil, eyni zamanda iqtisadi tərəfdaşlıq modelinin daha da güclənməsi və şaxələnməsi istiqamətində mühüm addımların atıldığını nümayiş etdirir. Azərbaycan və Türkiyə arasındakı iqtisadi bağlar gələcək üçün də strateji əhəmiyyət daşıyır.

Xüsusi vurğulanmalıdır ki, İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın enerji təminatını yaxşılaşdıraraq mavi yanacağın təchizatının dayanıqlılığını artırır. İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr olan boru kəmərinin 17,5 kilometri Azərbaycanın, 80 kilometri isə Türkiyənin ərazisindən keçir. Kəmər gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək gücünə malikdir ki, bu da Naxçıvanın qaz tələbatını tam şəkildə ödəyir. İğdır-Naxçıvan qaz kəməri bütün asılılığa son qoyaraq, Azərbaycanın öz ehtiyatları hesabına Naxçıvanı birbaşa təbii qazla təmin etməsinə imkan yaradacaq. Artıq Naxçıvanın enerji təchizatı tamamilə Azərbaycanın və qardaş Türkiyənin imkanları çərçivəsində həll olunur, ölkənin enerji təhlükəsizliyində yeni bir səhifə açılır. Digər tərəfdən, Ermənistan bu strateji layihədən də kənarda qaldı. Əgər bu ölkə destruktiv siyasət yerinə, regional əməkdaşlıq imkanlarından faydalanmağa çalışsaydı, indi Cənubi Qafqazın inkişafından bəhrələnən tərəflərdən biri ola bilərdi. Lakin reallıq tam başqadır: Azərbaycan və Türkiyə regionun enerji və nəqliyyat xəritəsini yenidən tərtib edərkən, Ermənistan təcrid olunmuş vəziyyətdə qalmaqda davam edir. Prezident İlham Əliyevin İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirakı zamanı səsləndirdiyi fikirlər bunu bir daha sübut edir: "Bu gün açılışında iştirak etdiyimiz layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Çünki Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürülərək, artıq Naxçıvanı da bu problemdən xilas etmiş olacaqdır". Şübhə yoxdur ki, İğdır-Naxçıvan qaz kəməri bütün Azərbaycanın enerji strategiyasını gücləndirən bir layihədir. Bu kəmərlə Azərbaycan öz resurslarını daha çevik idarə edəcək.

Bu gün Azərbaycan və Türkiyə arasındakı sarsılmaz dostluq və qardaşlıq münasibətləri təkcə enerji lahiyələri ilə deyil, digər aspektlərdə də özünü doğruldur. Sö-



zügedən qardaşlıq bağları bütün türk dünyası üçün mühüm əhəmiyyət daşıyır. Bu tandem türk birliyinin canlı və güclü nümunəsinə çevrilib, ortaq tarixi, mədəniyyəti və maraqları paylaşan dövlətlər üçün bir örnək təşkil edir. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Türkiyə ilə Azərbaycan arasındakı birlik, qardaşlıq bütün türk dünyasına böyük bir töhfədir: "Türk dünyasının birləşməsi yolunda əziz Qardaşım, hörmətli Cümhurbaşqanının çox böyük rolu var. Onun liderliyi ilə həm Türkiyədə böyük uğurlar əldə edildi, həm türk dünyasının daha da sıx birləşməsi üçün yeni imkanlar yarandı. Azərbaycan da hər zaman türk dünyasının birləşməsinə çox böyük önəm verirdi və öz tərəfindən bu birliyi təmin etmək, bunu əbədi etmək və ortaq maraqlar və ortaq tarix üzərində əlaqələri qurmaq üçün səylərini əsirgəmirdi". Xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində aparılan birgə əməkdaşlıq, türk dünyasının daha da yaxınlaşmasına xidmət edir. Azərbaycan və Türkiyə bu təşkilat daxilində bir-birini tamamlayan qüvvələr kimi çıxış edərək, Mərkəzi Asiya və digər türk dövlətləri ilə münasibətlərin inkişafına təkan verir. Bu isə təkcə iki ölkənin deyil, bütün türk dünyasının güclənməsi deməkdir.

Azərbaycan və Türkiyə birgə addımladıqca region daha da güclənir. Xüsusilə, enerji sektorunda bu sıx inteqrasiya gələcəkdə daha böyük layihələrin reallaşmasının xəbərçisidir. Qardaşlıq telləri ilə bağlı olan iki ölkə indi növbəti dəfə enerji damarları ilə bir-birinə möhkəm bağlanır.

**Nurlan ABDALOV,**
**"Respublika".**